**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 279/2** **30 sentyabr 2016-cı il**

## "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar" barədə

Azərbaycan Respublikasında auditor xidmətinin İnkişaf Konsepsiyasının (2012-2020-ci illər) həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərin icrasının təqvim planının 4.1-ci "Auditin keyfiyyətinə nəzarətə dair beynəlxalq standartların tətbiqinin genişləndirilməsi", 4.3-cü "Etik prinsiplərin həyata keçirilməsi" və 4.4-cü "Auditor fəaliyyətinə kənar nəzarətin təmin edilməsi üçün müvafiq hüquqi, institsional tədbirlərin həyata keçirilməsi" bəndlərinə, Auditorlar Palatasının 2016-ci illər üzrə iş planının 3.1-ci "İFAC-ın 1 №-li Üzvlüyə dair Öhdəlik Tələblərinə (SMO) müvafiq olaraq təsdiq edilmiş plana əsasən auditor xidmətinin keyfiyyətinə nəzarətin aparılması və onun nəticələrinə dair İcmalın hazırlanması" bəndinə, Beynəlxalq Audit Standartlarına, Peşəkar Mühasiblərin Etika Məcəlləsinə, 1 saylı Beynəlxalq Keyfiyyətə Nəzarət Standartına, Auditorlar Palatası Şurasının 2016-ci il 26 may tarixli 276/1 saylı qərarı ilə təsdiq edilmiş, tədbirlər planının 5-ci "Auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi üzrə təxirə salınmaz tədbirlərin işlənib hazırlanması" bəndinə, Auditorlar Palatası Şurasının 2016-cı il 4 iyul tarixli 277/5 saylıi qərarına və Auditorlar Palatası sədrinin "Auditor xidmətinin Keyfiyyətinə nəzarət sisteminin yaxşılaşdırılması" haqqında 2016-cı il 8 iyun tarixli 1/20 nömrəli Sərəncamına əsasən yenidən hazırlanmış "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"ın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Beynəlxalq təcrübə nəzərə alınmaqla yenidən hazırlanmış "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar" təsdiq edilsin (əlavə olunur).

2. Keyfiyyətə Nəzarət Komitəsinə (E.Əliyev) və Auditin keyfiyyətinə nəzarət şöbəsinə (Y.Namazəliyev) tapşırılsın ki:

- auditor xidmətinin keyfiyyətinə nəzarətin beynəlxalq tələblərə uyğun olaraq həyata keçirilməsini təmin etsinlər;
- Komitənin 2016-cı il üçün iş planında nəzərdə tutulmuş auditor təşkilatlarının və sərbəst auditorların keyfiyyətə kənar nəzarət üzrə yoxlamalarının vaxtında və yüksək səviyyədə aparılmasını təşkil etsinlər.

3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Palata Şurası yanında Keyfiyyətə nəzarət komitəsinin sədri E.Əliyevə, Auditin keyfiyyətinə nəzarət şöbəsinin müdiri Y.Namazəliyevə, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova tapşırılsın ki, "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"ın tətbiqi ilə əlaqədar 2016-cı ilin oktyabr ayı ərzində sərbəst auditorların və auditor təşkilatlarının rəhbərlərinin iştirakı ilə seminarın keçirilməsini təmin etsinlər.

4. Auditin keyfiyyətinə nəzarət şöbəsinin müdiri Y.Namazəliyevə, Maliyyə və təsərrüfat idarəsinin təsərrüfat bölməsinin müdiri N.İsmayılova tapşırılsın ki, 2 (iki) həftə müddətində "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"ın mətninin çoxaldılmasını, auditor təşkilatlarına və sərbəst auditorlara çatdırılmasını təmin etsinlər.

5. Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2013-cü il 11 oktyabr tarixli 245/1 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Qaydalar" və ona əlavə olunan Anketlər öz qüvvəsini itirmiş hesab edilsin.

6. Aparatın İnformasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, bu qərarın mətninin və "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"ın Palatanın internet səhifəsində Azərbaycan, rus və ingilis dillərində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**